# HƏMİŞƏ FƏAL MÖVQEDƏ

## Müsahibimiz Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin rəisi Yalçın Əhmədovdur

**-Yalçın müəllim, danılmaz faktdır ki, ölkəmizdə gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Yaxşı olardı ki, bu barədə daha ətraflı məlumat verəydiniz.**

-Bəli, doğru qeyd etdiniz. Ulu öndər öz müsahibələrində, çıxışlarında gəncləri Azərbaycanın gələcək qurucuları adlandırır, onların imkan və bacarıqlarını yüksək qiymətləndirir, problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verirdi. 1994-cü il iyulun 24-də Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkan verdi. Müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan gəncləri günü elan edilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət gənclər siyasəti haqqında" fərman və geniş fəaliyyət proqramının təsdiq edilməsi gənclərə böyük qayğının göstəricisidir.

Onu da vurğulayım ki, həmişə fəal mövqedə olan Azərbaycan gənci savadlı, intellektual, bir sözlə dövrün tələblərinə uyğun yetişir və böyüyür. Müasir Azərbaycan gənclərinin üzərinə düşən əsas vəzifə onlara yaradılan hər cür şəraitdən düzgün istifadə edərək, həm ölkəmizə, həm də cəmiyyətimizə layiqli vətəndaş kimi yetişməkdən ibarətdir.

Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və digər sahələrdə təmsil olunaraq, cəmiyyətin inkişafına öz töhfələrini verdiyindən onların bilik və bacarıqlarından istifadə olunur.

Ulu öndərin gəncliyə və gənclərə etimadı indi öz təsdiqini tapmaqdadır. Prezident İlham Əliyevin qayğısı ilə ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. İndi ölkəmizdə çoxlu sayda gənclər təşkilatı fəaliyyət göstərir, minlərlə gənc lider yetişib.

Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanması da uğurla gedir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu sahədə gördüyü işlər Azərbaycan gəncliyinin daha da qüdrətlənməsinə güclü təkan verir.

Dövlət gənclər siyasəti, ölkənin gələcəyini etibar edəcəyi nəslin hazırlanması Prezident İlham Əliyevin böyük önəm verdiyi sahədir. Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

**-Yalçın müəllim, dövlətimizin iqtisadi qüdrətinin durmadan artması bütün sahələrin uğurlu inkişafına müsbət təsirini göstərməkdədir. Ölkə Prezidentinin sərəncamı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq olunub. Bəs Lənkəran gəncləri bu proqramın icrasına hansı töhfələrini verirlər?**

-Əslində "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı gənclərlə iş aparan təşkilatlar, ümumilikdə hər bir gənc üçün strateji yol xəritəsidir. Məhz bu proqram imkan verir ki, sərbəst şəkildə hər bir gənc həmin siyasətin həyata keçirilməsinin fəal iştirakçısı olsun. Bu sərəncamdan ruhlanan gənclərimiz təhsildə, idmanda, ictimai tədbirlərdə daha yaxından iştirak edirlər.

Lənkəranda da gənclər siyasəti uğurla həyata keçirilir. Minlərlə gənc rayonun siyasi və sosial-iqtisadi həyatında aparıcı qüvvəyə çevrilib. İstedadlı və yaradıcı gənclərə dövlət qayğısının artırılması, onların karyera imkanlarına şərait yaradılması məqsədilə Lənkəran Gənclər Evində "Lənkəran Debat Mərkəzi", "Skautinq Mərkəzi" fəaliyyət göstərir. Bugünə qədər bu mərkəzdə fəaliyyət göstərən gənclər rayonun ucqar kənd məktəblərində, eləcə də ali və orta ixtisas təhsil müəssisələrində narkomaniya, erkən nikah, debat, skautinqin əsasları, ilkin tibbi biliklərə, fövqəladə hallara dair maarifləndirici seminar və təlimlər aparmışlar. Hər il rayonun fəal gəncləri Azərbaycanın haqq səsini, Xocalı soyqırımı ilə bağlı həqiqətləri "Xocalıya ədalət!" kampaniyası çərçivəsində sosial şəbəkələr üzərindən paylaşaraq dünya ictimaiyyətinin nəzərinə çatdırmaqda fəallıq göstərirlər.

Lənkərandakı hərbi hissələrdə xidmət keçən gənc əsgərlərin mənəvi-psixoloji durumunun yüksəldilməsi, onların asudə vaxtının səmərəli təşkili, eyni zamanda gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, eləcə də gənc əsgərlər arasında ölkəmizin tarixi, mədəniyyəti, ədəbiyyatı, etnoqrafiyası haqqında məlumatlılığın artırılması məqsədilə İdarəmiz tərəfindən mütəmadi olaraq hərbi hissələrdə müxtəlif əyləncəli bayram tədbirləri, gənclərin iştirakı ilə həmin yerlərə ekskursiyalar, eləcə də hərbi hissələrarası bilik yarışları keçirilir.

**-Bəs Lənkəran idmanşılarının uğurları barədə nə deyə bilərsiniz?**

-Bəri başdan bildirim ki, hər hansı ölkədə idmanın kifayət qədər ardıcıl və məqsədyönlü inkişafı bir çox amillərdən asılıdır. Bu amillər sırasında dövlətin idmana münasibəti özünəməxsus yer tutur. Azərbaycan qədim idman ənənəsi ilə seçilən ölkələrdən biridir. Burada tarixən idmanın müxtəlif növləri inkişaf etmişdir. Mənbələrə əsaslanaraq deyə bilərik ki, Azərbaycan ərazisində hələ eramızdan əvvəl güləş, oxatma, qılıncoynatma, atçapma kimi idman növləri geniş yayılmışdır. Ölkəmizdə idmanın inkişafına müasir dövrdə önəm verilir və Azərbaycan dünyada idman ölkəsi kimi tanınmaqdadır. "Bakı-2015" I Avropa Oyunları, "Bakı-2017" IV



İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları, bu yaxınlarda isə (dəqiq tarixlə desək, 29 may 2019-cu il) UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi ölkəmizdə idmanın inkişafına təkan verməklə yanaşı, turizmin, iqtisadiyyatın müxtəlif sahələrinin əsaslı şəkildə inkişafına şərait yaratmışdır.

Müstəqilliyin ilk illərində obyektiv və subyektiv səbəblərdən Azərbaycanda idman diqqət və qayğıdan kənarda qalmışdı. Bu dövrdə ölkə idmanının inkişaf etdirilməsində ilk növbədə dövlətin idmana münasibətində dəyişiklik yaranmalı idi.

Belə dəyişiklik 1993-cü ilin ikinci yarısında Heydər Əliyevin dövlətə başçılıq etdiyi dövrdə başlandı.

Ölkədə Olimpiya Hərəkatının genişlənməsinin təşəbbüskarı və ilhamçısı Ulu öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə Milli Olimpiya Komitəsi yaradılıb. Hazırda ölkədə 45 Olimpiya İdman Kompleksi fəaliyyət göstərməkdədir.

2018-ci il oktyabrın 15-də ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilən, 6 hektar ərazini əhatə edən Lənkəran Olimpiya İdman Kompleksində 788 tamaşaçı yerlik universal idman salonu, 53 yerlik mehmanxana, 70 yerlik konfrans zalı fəaliyyət göstərir. Burada ağır atletika və trenajor zalında idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir.

Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub.

Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 90 tamaşaçı yeri var. Burada mini-futbol meydançası da idmançıların ixtiyarına verilib. Basketbol və voleybol meydançaları idmanseverlərə dəyərli töhfədir. Rayonda 15 idman növü üzrə 8.242 nəfər idmanın müxtəlif növləri üzrə məşğul olur. Onlardan 1059 nəfəri qadınlar, 4.267 nəfəri 5-13 yaşlı uşaqlar, 3.137 nəfəri 14-17 yaşlı yeniyetmələr, 808 nəfəri 18-29 yaşlı gənclər, 32 nəfəri isə əlillərdir. Həmçinin rayonumuzda 202 idman qurğusu mövcuddur ki, onlardan 192-si dövlət, 10-u qeyri-dövlət təşkilatlarında yerləşir.

Lənkəranda uşaqların, eləcə də yeniyetmə və gənclərin idmana cəlb edilməsi, müxtəlif növlər üzrə rayon birincilik və turnirlərinin keçirilməsi Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə uğurla davam etdirilir. Belə ki, hər il boks, güləş, taekvando, ağır atletika, futbol, cüdo, voleybol, badminton, şahmat idman növləri üzrə keçirilən turnir və birincilikdə uğur qazanmış idmançılar respublika çempionatlarında və ötən il Lənkəran rayonunda müxtəlif idman növləri üzrə 2.200 nəfərə yaxın idmançının iştirakı ilə 27 rayon birincilik turniri keçirilmiş, qalib gəlmiş idmançılar zona və respublika birinciliklərində, eləcə də beynəlxalq yarışlarda yüksək nəticələr əldə etmişlər.

Eləcə də cari ilin doqquz ayı ərzində 1700 nəfərə yaxın idmançının iştirakı ilə 14 rayondaxili birincilikdə uğur qazanmış idmançılardan 41 nəfəri I yeri, 34 nəfəri II yeri, 39 nəfəri III yeri əldə etmişlər. Bu il həmçinin Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi, Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Lənkəran Olimpiya İdman Kompleksində Aprel şəhidlərinin əziz xatirəsinə həsr olunmuş yunan-Roma güləşi idman növü üzrə Lənkəran rayon açıq birinciliyində 300-dən artıq idmançı öz qüvvəsini sınamışdır.

**-Maraqlı müsahibəyə görə çox sağ olun.**

-Minnətdaram. Siz də sağ olun.

**Müsahibəni apardı:**
**Ağaddin BABAYEV,**
**yazıçı-jurnalist.**
**Lənkəran.**